

**Nigar Pirimova**
*teatrşünas*

# Yuğ Dövlət Teatrının direktoru Tərlan Rəsulov səfərdən qayıdıb

## *İran səhnəsində qadına toxunmaq olmaz*



Tərlan Rəsulov İranın paytaxtı Tehran şəhərində 5-7 mart tarixlərində keçirilən beynəlxalq seminarda iştirak edib. Dramatik İncəsənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Özəl və dövlət teatrları arasında münasibət" adlı seminarda Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrindən - Rusiya, İtaliya, Meksika, İspaniya, Nigeriya, Gürcüstan, Macarıstan, Almaniya, Hindistan, Qazaxıstan və İrandan nüfuzlu teatr xadimləri iştirak etmişlər. Biz də fürsətdən istifadə edib Tərlan müəllimdən həmin seminar günlərində nələr baş verdiyini öyrənməyə çalışdıq.

**-Bu, sizin İrana ilk səfəriniz idi?**

-Bəli. Həm işgüzar səfər kimi, həm də qeyri-rəsmi ilk səfərim idi.

**-Tehran sizə necə təsir bağışladı?**

-Əslində ora da bizim vətənimizdir. Təbii ki, doğma torpağa ayaq basanda insan gözəl hisslər keçirir. Sadəcə təəssüf ki, həm yol yorğunluğu, həm də ora gecə çatdığımıza görə o qədər də rahat ola bilmədim.

**-Çıxışınız hansı mövzuda idi və necə qarşılandı?**

-Seminarda, adından da bəlli olduğu kimi, əsas mövzu dövlət teatrları, onlarla yanaşı, müstəqil, özəl teatrlarla bağlı idi. Bu da, müəyyən mənada, Azərbaycandakı mövcud vəziyyətlə də səsləşirdi. Seminara dünyanın bir çox ölkələrindən nümayəndələr gəlmişdilər. Hətta orada rastlaşdığımız bəzi xarici qonaqlar bizim forumda (III Bakı Beynəlxalq Teatr Forumu - N.P.) iştirak etmişdilər. Yeni tanışlıqlar da oldu, maraqlı söhbətlər etdik. O ki qaldı məruzəmə, düzünü desəm, çox maraqla qarşılandı. Mən çıxışımda Azərbaycanda mövcud teatr şəraiti, dövlət teatrları, yeni yaranmış özəl teatrlar haqqında danışdım.

**-Seminara gələn xarici qonaqlarla birgə layihələr hazırlamaq haqqında düşündünüzmü?**

- Bu, ilk gəlişimiz olduğuna görə, demək olar, münasibətlərimiz hələ tanışlıq xarakteri daşıyırdı. Ancaq bununla yanaşı, Meksika, Nigeriya, İtaliya nümayəndələri ilə daha çox nəzəri baxımdan əməkdaşlıqlarımız planlaşdırılır.

**-Tərlan müəllim, belə anladım ki, bu İrana ilk səfəriniz olduğundan "Yuğ" teatrı ilə İran teatrları arasında indiyədək heç bir əlaqə olmayıb? Bəs bundan sonra hansısa əlaqələr nəzərdə tutulurmu?**

-Doğrudur, İran teatrı ilə bizim bir sıra teatrlarımız arasında əlaqələr var. Amma bəli, "Yuğ" teatrı ilə əlaqələr yox idi. Ancaq bu, bir addım oldu. Artıq bir sıra İran teatr xadimləri ilə danışıqlarımız oldu, əlaqələr quruldu. Təbii ki, onların quruluşları ilə bizimkilər fərqli olduğundan qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması ilə bağlı müəyyən çətinliklər var. Lakin yenə də çalışacağıq ki, İran teatrları ilə yaradıcı əməkdaşlıq əlaqələrini daha da gücləndirək.

**-Seminardan nə kimi yeniliklər öyrəndiniz?**

-Əvvəla inanmıram ki, belə bir seminar davamlı olmasın. Düşünürəm ki, hər bir halda onlar hansısa bir mexanizmləri tapsalar, o cümlədən, biz bu mexanizmlərdən bəhrələnib burada da tətbiq edə bilərik. Təbii ki, təkcə biz yox, digər ölkələr də bu seminarda öz teatrlarının üstünlükləri və çatışmazlıqlarından söhbət açdılar. Və inanıram ki, belə müzakirələr həm bizim, həm də onlar üçün müəyyən problemlərin həlli yolunda bir addım ola bilər.

**-Orada olduğunuz müddətdə fürsət tapıb hansısa tamaşaya baxa bildiniz?**

-Əfsuslar olsun ki, tamaşanın adını unutmuşam. Bu da yorğunluqla əlaqədar idi. Ancaq bəli, orda olduğum bir neçə gün müddətində bacardığım qədər teatrlara baş çəkməyə, tamaşalara baxmağa çalışdım. Əslində, bizlərdən fərqli olaraq onlarda teatr və tamaşa anlayışı fərqlidir. Yəni tamaşalar teatrlarda göstərilmir, dövlət tərəfindən müəyyən edilmiş binalarda oynanılır.

**-Həmin tamaşalar bizim tamaşalardan nə ilə fərqlənir?**

-Orada olduğum müddətdə iki tamaşa izləyə bildim. Biri şəhidlik mövzusuna həsr olunmuşdu, digərində isə bir uşağın məktəb macəralarından danışılırdı. Əslində, oyun cəhətdən çox fərq yoxdur. Çünki aktyor peşəsinin tələblərinə cavab verən üsullar demək olar ki, bütün aktyorlar üçün eynidir. Sadəcə üslub baxımından onlarda klassik tamaşalar üstünlük təşkil edir. Həm də bilirsiniz ki, İranda şəriət qanunlarına çox önəm verilir. Səhnədə kişi-qadın münasibətləri məsafəlidir. İran səhnəsində qadına toxunmaq olmaz, onların başı bağlı olmalıdır. Hətta kişiləri belə azacıq açıq-saçıq görə bilməzsiz. Tamaşada rəqs etmək belə qadağandır. Ancaq bununla yanaşı, rejissorlar yeni üsullar tapmaq üçün çalışırlar. Amma aktyor oyunu, faktura baxımından tamaşalar çox xoşuma gəldi. Baxmayaraq ki, tamaşalar axşam saat 9-da başlayır, hər zaman zal tamaşaçı ilə doludur.

**- Vaxt tapıb şəhəri gəzə bildinizmi?**

-Çox təəssüflər olsun ki, heç bir yerə gedə bilmədim. Çünki elə bir şərait yaradılmamışdı. Seminara gəldik, qurtaran kimi də yola saldılar. Əlavə gün qalmadıq. Əslində, elə bir şərait yaradılsaydı, çox gözəl olardı, düzü, gərək biz əvvəldən belə bir təklif irəli sürərdik.

**-"Yuğ" teatrında cari repertuarda yeni tamaşalar gözlənilirmi?**

-Bəli, Günay Səttar S.Haqverdiyevanın əsərləri əsasında "Metamorfoza", teatrın baş rejissoru Gümrah Ömər isə Kamal Abdullanın "Bir, iki, bizimki" əsəri əsasında "Səsimi unutma" tamaşasını hazırlayır. Yaxın vaxtlarda hər iki tamaşanın məqləri başa çatacaq.

**-Təşəkkür edirik. Qarşıdan gələn bayramınız da mübarək olsun.**

-Çox sag olun. Sizlərlə bahəm.